

# Qarşımızda mühüm vəzifələr durur

*Azərbaycan tarixən öz təbii gözəlliyi, zümrüd donlu meşələri, zirvəsi buludlardan nəm çəkən ağ çalmalı dağları, sərt, məğrur qayaları, diş göynədən buz bulaqları, barlı-bərəkətli tarlaları, məhsuldar zəmiləri ilə diqqət mərkəzində olub. Respublikamıza maraq bu gün daha güclü, daha davamlıdır.*

Müsahibimiz Mədəniyyət və Turizm Nazirliyi turizm şöbəsinin müdiri Aydın İsmiyevdir.

***-Aydın müəllim, son illər ölkəmizdə turizmin inkişafına xüsusi diqqət yetirilir. Bu barədə bir qədər ətraflı məlumat verməniz xahiş edirik.***

- Bu bir həqiqətdir ki, son illər ölkəmizdə turizmin inkişafına diqqət xeyli artırılıb. Bu da təsadüfi deyildir. Azərbaycanda turizmin inkişafı üçün çox əlverişli şərait var. Bildiyiniz kimi, turizm çox gəlir gətirən sahələrdəndir. Hazırda respublikamızda 200-dən artıq turizm şirkəti fəaliyyət göstərir. Xatırladım ki, 2001-ci ildə cəmi 19 özəl turizm şirkəti fəaliyyət göstərirdi. Bu, həm də ölkəmizdə özəl sektorun inkişafına xüsusi diqqət və qayğı göstərilməsini təsdiqləyən faktdır. Ölkəmizdə turizmin inkişafına Gənclər, İdman və Turizm Nazirliyi yaradıldıqdan sonra daha ciddi fikir verildi. Respublikamızda turizmin inkişaf etdirilməsi üçün 2002-2005-ci illər üçün Dövlət Proqramı təsdiq olunmuşdur. 2001-ci ildən ölkəmiz Ümumdünya Turizm Təşkilatının üzvlüyünə qəbul edilib. Beynəlxalq turizm şirkətləri ilə əlaqə yaradaraq əməkdaşlığımızı daha da möhkəmləndirmişik. Bu əlaqələri indi də davam etdiririk. Bu, həm də zənqin təcrübə toplamağımıza kömək edir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında turizmin inkişafına da xüsusi diqqət yetirilib. Dövlət Proqramında 30-a yaxın bənd turizm obyektlərinin tikilməsinə həsr olunub.

Bir faktı da qeyd etmək istərdim ki, 2002-2005-ci illərdə turizmin inkişafı ilə əlaqədar təsdiq olunmuş Dövlət Proqramı, demək olar ki, 90 faiz yerinə yetirilmişdir. Qalan 10 faiz isə uzunmüddətli işlər olduğundan müəyyən vaxt tələb edir. Hazırda ölkəmizdə turizmin inkişafına dair yeni Dövlət Proqramı hazırlanır. Bu sənəd 2006-2016-cı illər üçün nəzərdə tutulub. Mədəniyyət və Turizm Nazirliyi nəzdində yaradılmış işçi qrupu bu vacib sənəd üzərində tamamlama işləri aparır.

***- Respublikamızın turizm sahəsi beynəlxalq aləmdə özünə müvafiq yer tuta bilibmi?***

- Son illər ölkəmizdə turizmin inkişafı beynəlxalq təşkilatların diqqətini cəlb edib. Müxtəlif beynəlxalq turizm təşkilatları ilə sıx əməkdaşlıq etməyimiz də bunu təsdiqləyir. Ötən ilin dekabr ayında Bakıda İslam Konfransı Təşkilatına üzv dövlətlərin turizm nazirlərinin beşinci konfransı keçirilib. Bu, çox mötəbər bir tədbir idi. Təsəvvür edin ki, 57 ölkənin turizm nazirlərinin ölkəmizdə toplaşması nə deməkdir. Bu, ondan xəbər verir ki, artıq Azərbaycanda turizmin inkişafı beynəlxalq standartlara cavab verir. 2002-2005-ci illərdə turizmin inkişafı ilə əlaqədar nəzərdə tutulmuş mehmanxana və mehmanxana tipli obyektlərin sayı 2 dəfə artmışdır. Bu illər ərzində respublikamıza gələn xarici turistlərin sayı da iki dəfədən çox artıb. Hazırda xarici tursitlərin sayı daha da artmaqdadır. Bununla əlaqədar olaraq respublikamızın ayrı-ayrı bölgələrində beynəlxalq standartlara cavab verən turizm obyektləri

inşa edilir. Çox sevindirici haldır ki, bir sıra iş adamları turizmin infrastrukturunun yaradılmasına böyük maraq göstərirlər. Xarici investorlar da bu sahə ilə maraqlanır, yeni mehmanxanalar, mehmanxana tipli obyektlərin tikintisi ilə məşğul olurlar. Hazırda Bakının mərkəzində çoxlu sayda mehmanxana kompleksi tikilmiş, regionlarda da bu iş davam etdirilir. Yeni turizmin beynəlxalq standartların tələbləri əsasında qurulması üçün ciddi işlər görülür. Biz iş adamları, habelə özəl sektorların rəhbərləri ilə sıx əlaqə saxlayır, turizmin inkişafı üçün onlara hər cür şərait yaradırıq.

*- Yeni hazırlanan Dövlət Proqramında qarşıya əsasən hansı vəzifələr qoyulub?*

- Dediyim kimi Dövlət Proqramı 10 il müddətinə nəzərdə tutulub. Əsas vəzifələrdən biri, turizm sahəsində normativ-hüquqi aktlar hazırlamaqdır. Daxili və beynəlxalq turizm marşurutlarının yaradılması, xarici ölkələrdə geniş reklam kompaniyası aparmaq, xarici ölkələrin turizmlə məşğul olan dövlət qurumları ilə əlaqələri möhkəmləndirmək, dövlət səviyyəsində müqavilələr bağlamaq, turizmin infrastrukturunun yaradılması, işsizliyin aradan qaldırılması başlıca vəzifələrdəndir. Turizm sektoru çox geniş bir sahədir. Yəni burada nəqliyyat, iaşə xidmətləri, mehmanxanalar var. Bunların hamısı yeni iş yerləri deməkdir. Yeni tikilən hər bir mehmanxana və mehmanxana kompleksində yüzlərlə insan çalışır. Bu da işsizliyin aradan qaldırılmasında öz təsirini göstərir. Son üç ildə mehmanxana və mehmanxana tipli komplekslərin sayı iki dəfə artıb.

Bir faktı qeyd etmək istərdim ki, xidmət sahəsində çalışan insanlar hələ beynəlxalq standartlara tam cavab vermirlər. Bu da ondan irəli gəlir ki, bu vaxta qədər bu sahədə çalışacaq mütəxəssislər hazırlamaq üçün bizdə tədris müəssisəsi olmayıb. Bu çətinliyi aradan qaldırmaq üçün Türkiyənin Turizm Nazirliyi və TİKA adlı beynəlxalq təşkilatın köməkliyi ilə turizm şirkətlərinin idarə olunması və xidmət sahəsində çalışanlar üçün təlim kursları təşkil olunub.

Ümumiyyətlə, turizm sahəsində xidmət etmək çox məsuliyyətli bir işdir. Əcnəbi turistlər çox həssas olurlar. Onlar xidmətin səviyyəsinə ciddi fikir verirlər. Ona görə də hava limanından başlayaraq, mehmanxanada yerləşənə qədər xidmətin səviyyəsi çox yüksək olmalıdır. Bu, həm də növbəti il daha çox turistin ölkəmizə gəlməsini şərtləndirir. Eyni zamanda xalqımız, millətimiz haqqında əcnəbilərdə yaxşı təsəvvür formalaşır. Dövlət Proqramının həyata keçirilməsi turizmin inkişafına böyük təkan verəcək.

*- Turizmin gətirdiyi gəlirə toxunmaq istərdik. Deyilənə görə, qardaş Türkiyədə turizm ötən il təqribən 17 milyard dollar gəlir gətirib. Digər ölkələrdə də bu sahədən külli miqdarda gəlir əldə olunub. Bəs bizdə necə, bu sahədən son illər nə qədər gəlir əldə olunub?*

- Mən qeyd etdim ki, turizm dövlət büdcəsinə çox böyük gəlir gətirən sahələrdəndir. Bizim nazirliyin əsas istiqamətləri daxili turizmin inkişafına ciddi fikir vermək, ölkəmizə xarici turistlərin gəlməsinə əlverişli şərait yaratmaq, bununla da əcnəbi turistlərin sayını çoxaltmaq, yerli əhalinin istirahətini təmin etməkdir. Bu sual çox tez-tez verilir ki, nəyə görə Antaliyada və başqa yerlərdə turizmdən daha çox gəlir götürülür, bizdə isə nisbətən az. Bir şeyi qeyd edim ki, Türkiyənin Turizm Nazirliyi 1963-cü ildə yaradılıb və 1983-cü ildə onların Dövlət Proqramı təsdiq olunub. Türkiyənin turizm sahəsini qaldırmaq üçün 20-25 il vaxt sərf olunub. Bizdə isə qısa müddət ərzində xeyli iş görülüb. İnkişaf göz qabağındadır. Zənnimizcə, yaxın gələcəkdə bu sahə üzrə ölkəmiz Avropa ölkələri ilə bərabər səviyyədə olacaq. İndiyədək dövlət büdcəsinə xeyli vəsait köçürülüb. Məsələn, 2005-ci ildə 77,7 milyon ABŞ dolları gəlir əldə edilib. 2002-ci ildə bu rəqəm 51 milyon dollar idi.

*- Dünyada mövcud olan 11 iqlim qurşağının 9-u ölkəmizdədir. Bu, respublikamızda turizmin inkişafına əlverişli şəraitin yaradılmasına əsas verir. Azərbaycanda bu imkandan necə istifadə olunur?*

- Təbiət öz səxavətini Azərbaycandan əsirgəməyib. Dediyiniz kimi, 11 iqlim qurşağının 9-u ölkəmizdə mövcuddur. Bu da bizə imkan verir ki, ayrı-ayrı regionlarda yeni turist bazaları yaradaq. Turizmin inkişafı ilə əlaqədar hazırlanan Dövlət Proqramına əsasən, ölkəmizdə beynəlxalq standartlara cavab verən yeni mehmanxana və mehmanxana tipli komplekslər, turizm mərkəzləri tikilir və tikiləcəkdir. Bizim ölkəmizdə turizm üçün elə potensiallar var ki, əksər ölkələrdə belə imkan yoxdur. Turizmin inkişafı üçün özəl şirkətlərə lisenziya verilməsi işi xeyli asanlaşdırılıb, dövlət rüsumu da azaldılıb.

*Hazırda ölkəmizdə mehmanxana və mehmanxana tipli komplekslərin təsnifatı keçirilir. Artıq 40-a yaxın mehmanxana təsnifatdan keçərək müəyyən ulduzlar alıblar. Ulduz mehmanxananın xidmət səviyyəsinin göstəricisidir. Beşulduzlu mehmanxana ilə altıulduzlu mehmanxananın xidmət göstəriciləri fərqlidir. Biz ölkəmizə gələn əcnəbi turistlərin sayının daha da çoxalması üçün bütün imkanlardan istifadə edirik.*

**TURAL**